

Naxçıvan şəhərində qədim məhəllə adları

Naxçıvan şəhəri orta əsrlərdə tarixi ipək yolunun üstündə olmuş, burada əhali artıb-çoxalaraq məhəllələr yaranmış və sənətkarlıq sahələri inkişaf etdirilmişdir.

Əvvəli "Mədəni - maarif"in 6-cı sayında

18) Qoçüstü məhəlləsi. *Naxçıvan şəhərində qədim məhəllələrdən biri olmuşdur. Naxçıvan şəhəri Orta əsrlərdə Nəşəvi adlanmış, yadellilərin basqınları nəticəsində dağılaraq yerini üç dəfə dəyişməyə məruz qalmışdır. Orta əsrlərdəki Nəşəvi şəhəri indiki Kazım Qarabəkir Paşa məscidinin ətrafında Naxçıvan çayın sağ sahilində yerləşmişdir.*

İslam dinindən əvvəl nəşəvililər müxtəlif dinlərə xüsusilə atəşpərəstliklə məşğul olub, Xeyir və Şər qüvvələrə sitayiş etmişlər.

Ərazidə IX əsrədək Nəşəvinin mərkəzi meydanında iri daşdan yonulmuş qoç heykəli qoyulmuş, bayram günlərindəki kütləvi mərasimlərdə əhali ora yığışaraq tonqal yandıraraq qoç heykələ təzim edərmişlər.

Sonrakı əsrlərdə həmin şəhər yeri Monqollar tərəfindən dağıdılmış və öz yerini cənub-qərbə tərəf dəyişdirmişdir.

Haliyyədə Naxçıvan şəhərindəki Sabir küçəsinin qurtaracaq əraziləri qədim Qoçüstü (Qoçaltı) məhəlləsi kimi qalmışdır. Maraqlıdır ki, qədim Nəşəvi şəhərindəki Qoç meydanı yerində haliyyədə (Sabir küçəsi, döngə 6, ev №8) "Müqəddəs məzarlar" piri mövcuddur.

Məhəllə ərazisində 50-ci ilədək kolxoz təsərrüfat əkinləri olmuş, sonrakı illərdə isə Əbrəqunis rayonunun Anzır kəndinin əhalisi məskunlaşmışdır.

19) "Qurdlar" məhəlləsi. *Naxçıvan şəhərində qədim məhəllə adıdır. Naxçıvandakı "Bəktaş arxı"nın suları həmin məhəllə ərazisindəki əkin yerlərini suvarır. Şimal-qərbdən Şahab, şimal-şərqdən isə Qoçüstü məhəllələri ilə birləşmişdir.*

Orta əsrlərin əvvəllərində Nəşəvi (Naxçıvan) şəhəri xarici qəsbkarlar tərəfindən dağıdılaraq, Qoçüstü məhəlləsinin cənub tərəfi xərabəlik vəziyyətində qalmışdır. Nəticədə ərazidə sahibsiz itlər (qurdlar) yuva salaraq çoxalmışlar...

Yerli əhalinin heyvan sürülərinə tez-tez "qurdlar" basqın etdiklərindən əhali oradan köçmüşdür. Haliyyədə məhəllə əhalisi keçmiş Əbrəqunis rayonu kəndlərindən köçüb gələnlərdir.

20) Pirqəmiş məhəlləsi. *Naxçıvan şəhərindəki qədim məhəllədə Pirqəmiş məscidi də vardır. Həmin məscidin Naxçıvanda VIII əsrdə ərəblər tərəfindən təməli qoyulmuşdur.*

Məscidin həyətində əvvəllər tənha yaşamış Qələndərin (tərki-dünya) məzarı olmuşdur. Sonradan məzar yeri ətrafında yeraltı suların üzə çıxmasından qamışlıq əmələ gəlmişdir.

Adı unudulan Qələndərin məzarına bayram günlərində ziyarətə gəlib, burada od yandırıb dini ayinləri icra edərdilər. (Maraqlıdır ki, həmin yerdə indi də, bayram günlərində məhəllə cavanları tonqal qalayıb meydançaya yığışarlar). Məhəllədə 1922-ci ildə "Ünas" (qız) məktəbi açılmış. Nazlıxanım Tahirova (1890-1977) orada müəllimlik etmişdir. Doxsanıncı ildə naxçıvanlı ilk şəhid İdris Məmmədov həmin məhəllədə yaşamışdır.

21) Sallaqxana (Çuxur) məhəlləsi. *Naxçıvan şəhərində qədimdən qalma məhəllə şərqdən Sarbanlar, şimaldan Xınçov məhəllələri ilə qonşudur.*

Adı unudulmuş məhəllədə əsasən qəssablar, faytonçu və yükdaşıyanlar məskunlaşmışlar.

Əvvəllər məhəllədəki mövcud su çeşmələri ilə yaxınlıqdakı əkin yerlərini suvarırdılar. Buranın əsas əhalisi Cənubi Azərbaycanın Maku və Xoy əyalətlərindən gələnlər məskunlaşmışlar. Məhəllənin yaşlı sakinləri hələ də Maku şivəsində danışırlar. Məhəllənin coğrafi relyefi "çuxur" formasında olduğundan haliyyədə əraziyə Çuxur məhəlləsi də deyirlər.

22) Sarvanlar məhəlləsi. *Naxçıvan şəhərində qədim məhəllələrdən biridir. Sarvanlar (sarban) sözü karvanbaşı, dəvəçi mənasındandır. Məhəllə şimaldan Sallaqxana, cənubdan Gomayıl məhəlləsi ilə birləşmişdir. Məhəllə sakinləri şəhərdə iyirminci əsrin 40-50-ci illərinədək dəvəçiliklə, arabaçı və faytonçuluqla məşğul olublar.*

Sarvanlar məhəlləsində şəhərin tanınmış Şeyx Ağa Mirağa (Miriş ağa) (...-1918) yaşamışdır. Haliyyədə onun həyəti yerində iki minarəli "Həzrəti Zəhra məscidi" tikilərək fəaliyyət göstərir. Məhəllədə sulu çeşmələr olduğundan, əkin yerlərinə arxlar çəkmişlər. Məhəllədə şəhərin tanınmış ziyalılarından Qasım Tağıyev, Həsən Elsevər, Lətif Hüseynzadə və başqaları yaşamışlar.

23) "Təbriz meydanı" məhəlləsi. *Naxçıvan şəhərində Zaviyə məscidinin yanında XVIII əsrdə yaradılmışdır. Məhəllədə baqqal və parça dükanları olmuşdur ki, sahibləri Təbrizli olmuşlar.*

İyirminci əsrin əvvəllərinədək məhəllədəki geniş dairəvi meydan "Gömrükxana" adlandırılmışdır ki, tacirlərin mallarına "baxış" keçirilərdi.

Naxçıvanda 1918-20-ci illərdə Araz (Türk) Respublikası yaradılanda amerikalı general Heskel həmin meydanda iqamətgah (Ağ ev) tikdirərək ABŞ-ın bayrağını asmışdır.

Rus bolşevikləri iyirmi üçüncü ildə Naxçıvana gəldikdən sonra həmin meydanda qırmızı bayraq asılaraq ABŞ-ın keçmiş general-qubernatorluğunun binasını da ələ keçirməklə, meydana "Sovnarkom meydanı" adını vermişlər.

1930-cu ildə keçilili Qaçaq Quşdanın silahlı dəstəsi ilə mübarizədə həlak olanları şəhərdəki "Padşahlıq bağında" (Böyük bağda) dəfn edilməklə "Sovnarkom meydanı" "17-lər meydanı" ilə əvəz olunmuşdur. Çünki cənazələr həmin meydandakı yığıncaqdan sonra aparılıb Böyük bağda dəfn edilmişlər.

"Təbriz meydanı" məhəlləsində XVII əsrdən qalma hamam binası, dövrümüzədək tarixi memarlıq abidəsi kimi qorunaraq saxlanılmışdır.

Torpaq altında qalmış həmin hamam tikilisi səksəninci illərdə orada çoxmərtəbəli "Təbriz" mehmanxanası tikilərkən aşkar olmuşdur.

"Təbriz meydanı" məhəlləsində böyük ədib C.Məmmədquluzadənin anadan olmasının 110 illiyi ərəfəsində (1976-cı ildə) heykəltəraş M.Mirqasımovun düzəltdiyi C.Məmmədquluzadənin heykəlini qoymuşlar. Bundan sonra həmin ərazi "Mirzə Cəlil meydanı" adlandırılmışdır. Lakin 1989-cu ildə heykəl sökülərək Dövlət Dram Teatrının qarşısında qoyulduğundan həmin meydan yenidən "Təbriz meydanı" adlandırılmışdır.

1999-cu ildə orada Dədə Qorqudun (müəllifi Elman Səfərov olmuşdur) 5,3 metr ucalığında heykəlini qoymaqla meydan da "Dədə Qorqud" adlandırılmışdır.

Əllinci illərədək həmin məhəllədə Naxçıvan hökumətinin səlahiyyətli vətəndaşları üçün iki mərtəbəli ictimai binası tikilmişdir. Ərazidə Kukla teatrı, Türk litseyi, Stamatoloji poliklinikası, Rabitə bankı və başqa ictimai müəssisələr də vardır. Haliyyədə "Təbriz meydanı" məhəlləsi unudulmuş, oradakı ictimai binalarla bərabər Dövlət Seysmoloji hadisələr Mərkəzinin binası da sökülmüşdür.

İyirminci illərdə Naxçıvan ölkə (bolşevik) komitəsinin ilk rəhbərlərindən biri Mirzalı bəy Bəktaşı həmin məhəllədə yaşamışdır.

24) Əlixan məhəlləsi. *Naxçıvan şəhərində qədim məhəllələrdən olaraq, adı hələ də unudulmamışdır. Ərazi şəhərin şimal qurtaracağında Bəydaş, Cıdılı, Çimən və Cığatay məhəllələri arasındadır.*

Məhəllənin adı orada yaşamış xeyriyyəçi Kərbalayi Əlixan Kəngərlinin (1888-1935) atababasının adı ilə bağlı olmuşdur.

Məhəllənin ərazilərindən Bazar çayı ilə çeşmələr axıb keçir. Əhalisi yerli Naxçıvanlı və 1949-50-ci illərdə Ermənistandan köçürülmüş soydaşlarımızdır. (Onlara "irəvanlı"lar da deyirlər). Məhəllədə çoxlu tut ağacları əkildiyindən onlardan bir neçəsinin yaşı yüzdən yuxarıdır.

1918-21-ci illərdə erməni quldurbaşı Andranik Ozanyan silahlı dəstəsi ilə Naxçıvan şəhərini mühasirəyə alanda təslimolma Ultimatum yazıb Əlixan məhəlləsinə göndərmişdir. Andranikin göndərdiyi kağızın arxasında Əlixan Kəngərlinin tövsiyəsi ilə rəssam Bəhruz Kəngərli tərəfindən tayqulaq ulaq şəkli çəkilmiş, altında da Andranik yazılaraq geri göndərilmişdir.

Naxçıvana köməyə gələn Türkiyə komandanı Kazım Qarabəkir Paşa, həmin əhvalatı biləndə "Mərhaba" deyərək ürəkdən gülmüşdür.

Əlixan məhəllə məscidində türk xilaskarının şərəfinə qurbanlıq heyvanlar kəsilərək, Çimən məhəlləsində yerləşən əsgərlərə qayğı göstərilmişdir. Təəssüf ki, otuzuncu illərdə Kərbalayi Əlixan kişi, yerli hökumət nümayəndələri tərəfindən tutularaq "xalq düşməni" adı ilə öldürülmüşdür. Mərhumun məzarını məhəllə sakinləri (Molla Talıbın köməyi ilə) şəhər qəbirstanlığındakı "Nuhun qəbri" yaxınlığında dəfn etmişlər.

Əllinci ildə "Nuhun qəbri" memarlıq abidəsi (sərdabə) buldozerlə kürənərək, məzar yeri də dağıdılmışdır.

Əlixan məhəlləsində görkəmli ziyalılardan tibb elmləri namizədi Cabbar Cəfərov, şair Müzəffər Nəsirli, xalq müəllimi Əli Hüseynov, jurnalist Fərman Tağıyev və başqaları yaşamışlar. Məhəllədə otuzuncu illərin represiya qurbanı olmuş şair və dramaturq Hüseyn Cavid Rəsizadənin ev-muzeyi ilə ailə üzvlərinin qəbirüstü məqbərəsi də vardır.

Əlixan məhəlləsində Bəhruz Kəngərli Muzeyi, iki orta məktəb, Uşaq İdman Məktəbi, Respublika Məktəblilər Sarayı, Uşaq Ekaloji və Turist-Ölkəşünaslıq Mərkəzləri, Respublika Stadionu, H.Əliyev adına Uşaq Mədəniyyət Parkı və başqa müəssisələr vardır.

25) Zaviyə məhəlləsi. *Naxçıvan şəhərində Təbriz küçəsi ilə şəhid A.Tarverdiyev küçələrinin kəsişdiyi yerdə "Zaviyə məscidi" binası vardır. Həmin məscidlə əlaqədar binanın cənub-şərq hissəsindəki ərazilər Zaviyə məhəlləsi adlandırılmışdır.*

Zaviyə sözü künc, bucaq deməkdir, elə həmin məscid binası da hər iki küçələrin kəsişdiyi bucaqda tikilmişdir. XVIII əsrdə zadəgan nəslindən olanlar bu ərazidə yaşamışlar. Onların iki mərtəbəli bişmiş kərpicdən tikilmiş evlərindən bir neçəsi dövrümüzədək qalsa da, ev sahibləri Sibirə sürgünə göndərilmiş (güllələnmiş), evlərini isə kommunal təsərrüfatı kimi yoxsul ailələrə paylamışlar.

Ərazidə 1918-21-ci illərdə Ermənistandakı yurd yerlərindən qovulmuş qaçqın ailələr məskunlaşmışlar.

Əvvəllər məhəllədə qalayçı və dəmirçi ailələri də yaşayırdılar. Naxçıvan şəhərində onlarca şagirdi olan qalayçı Məşhədi Heydər usta həmin məhəllə sakinlərindən idi. Filoloji elmlər doktoru Yavuz Axundlu haliyyədə Zaviyə məhəlləsinin sakinlərindəndir. Haliyyədə həmin məhəllədə "Əcəmi" nəşriyyat poliqrafiya müəssisəsi fəaliyyət göstərir.

Məhəllədə "Xədiceyi-Kubəra" piri məhəllə möminlərinin mənəvi inanc yerlərindəndir. Pir türbəsi doxsanıncı illərdə təmir-bərpa olunmuşdur.

26) Şahab məhəlləsi. *Qədim məhəllə şəhərin cənub-şərq hissəsində "Qurdlar", Pirqəmiş və Anbar məhəllələri arasında yerləşərək, Bazar çayından axan "Söyüdlü arxı"ın qurtaracağındadır. Məhəllənin toponimi də həmin su arxı ilə əlaqədar olmuşdur ki, "uzun su arxı" sözündən götürülmüşdür.*

Məhəllədə Şahab məhəllə məscidi fəaliyyət göstərmişdir ki, ona "Kələntər məscidi" də deyərdilər. İyirminci illərin axırlarında məscid binası rus-bolşevik əsgərlərinin at tövləsinə çevrilərək sonradan qapı-pəncərələri avadanlıqları ilə bərabər sökülüb aparılmışdır. Bundan qəzəblənən məhəllə ağsaqqal və xeyriyyəçisi Məmmədkərim kişi hökumətə qarşı məhəllə möminlərinin adından etirazını bildirmişdir.

Otuzuncu ildə "sinfi düşmən" kimi Məmmədkərim Kələntərli Sibirə sürgün olunmuş, iki mərtəbəli evini də yerli hökumət tərəfindən Səhiyyə Komissarlığına vermişlər.

Şahab məhəlləsində Mir Əsədullayev soy kökündən olan seyidlər yaşayırlar ki, onlar VIII əsrdə Naxçıvana gəlmiş İraq ərəbləri sülaləsindəndirlər.

Məhəllədə XII əsrdə memar Əcəmi Naxçıvani tərəfindən tikilmiş Yusif Küseyir oğlunun məzarüstü sərdabəsi, memarlıq abidəsi vardır. Bundan başqa məhəllədə "Süddü nənə" adlı pir yeri vardır ki, orada qadın sinəsinə bənzər böyük qara rəngli hamar daş-meteorit saxlanılır.

Şahab məhəlləsindəki əhali qədim Naxçıvan (Nəşəvi) şəhərinin nümayəndələridir. Belə ki, ərazidəki Xanım qızlar məktəbi (9№-li orta məktəb) binası tikilərkən yer qazıntıları zamanı eramızdan əvvəl II-I əsrlərə aid üzərində "Nəx" yazıları olan sikkələr və başqa maddi-mədəniyyət nümunələri aşkar olmuşdur.

Məhəllədəki yaşayış evləri qədim memarlıq üslubunda tikilərək, labirintvari ensiz küçələrdən ibarətdir.

Azərbaycanın Əməkdar artisti Şirzad Abutalıbov, Əməkdar rəssam Yuran Məmmədov, Əməkdar mədəniyyət işçisi İsfəndiyar Əsədullayev və başqaları Şahab məhəlləsinin sakinləri olmuşlar.

Şahab məhəlləsinin cənub hissəsində orta əsr şəhər qəbiristanlığı ilə "Yezdabad" qalasının sökülmüş divarları qalmaqdadır. Məhəllədə orta məktəb, Naxçıvan Respublika Korlar cəmiyyətinin klubu, şəhər məhkəməsi, tikiş fabriki və şəhər hərbi komissarlığının ictimai binaları vardır.

Qədim Şərqin "Qapısı" adlanan Naxçıvan diyarı, keçən əsrin 90-cı illərində ermənilər tərəfindən iqtisadi blokadaya alınmışdır. Lakin dözümlü və vətənpərvər naxıçıvanlılar bütün bu çətinliklərə baxmayaraq yaşayır, yaradır və milli mədəniyyət tariximizi qürurla qoruyub saxlayırlar.

Son illərdə Naxçıvan şəhərindəki məhəllələrdə abadlıq və yenidənqurma işləri sürətlənmiş və tarixi mədəniyyət abidələri qorunmaqdadır. Bütün bu işlər Naxçıvan MR Ali Məclisi rəhbərliyinin diqqət və qayğısı ilə mədəniyyət və turizm sahəsində çalışanların vətənpərvərlik nümunələridir.

Feyruz BAĞIROV,
Elmi-Metodik Mərkəzin şöbə müdiri

Naxçıvan